# "Artıq maskalar çıxarılıb və açıq mübarizə gedir"

## Tofiq Abbasov: "Müharibə başlasa, Fars körfəzi ətrafındakı ölkələr bu prosesdən kənarda qala bilməyəcəklər"

**Səudiyyə Ərəbistanında şiə təriqətindən olan alim Nimr ən-Nimr də daxil olmaqla 47 nəfərin "terrorçuluq və ona təhrikçilikdə" ittiham olunaraq edam edilməsi bu ölkə ilə İran arasında münasibətləri gərginləşdirib. İranda bu qərara etiraz edən bir qrup insan Səudiyyə Ərəbistanının Tehrandakı səfirliyinə hücum edərək orada yanğın törədiblər, həmçinin səfirliyin daxili müəssisəsini dağıdıblar. Səudiyyə Ərəbistanının Məşhəddəki konsulluğuna da iranlı etirazçılar hücum ediblər. Etirazçılar burada da binaya od vurmağa cəhd ediblər, nəticədə bir neçə otaq yandırılıb. Hücumlardan sonra polis 40 nəfəri saxlayıb. Bu hadisələrin ardınca Səudiyyə Ərəbistanı İranla diplomatik əlaqələri kəsdiyini bəyan edib, iranlı diplomatlara ölkəni tərk etməsi üçün 48 saat vaxt verib. Səudiyyə Ərəbistanının İranla diplomatik əlaqələrin kəsilməsi ilə bağlı bəyanatından irəli gələrək, bu ölkənin Mülki Aviasiya İdarəsi də İrana və geriyə olan bütün uçuşları dayandırıb. Səudiyyə Ərəbistanının atdığı addıma uyğun olaraq, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri Tehrandakı səfirlərini geri çağırıb, Bəhreyn və Sudan da İranla diplomatik əlaqələri kəsib. Sözügedən mövzu ətrafında "Kaspi"nin suallarını politoloq Tofiq Abbasov cavablandırır.**



**- Tofiq müəllim, son hadisələrə qədər də Səudiyyə Ərəbistanı və İran arasında fikir ayrılığı hökm sürür, Suriyada münaqişənin nizamlanması üzrə danışıqlar prosesinin iştirakçısı olan hər iki dövlət bir-birinə qarşı zidd mövqe nümayiş etdirirdi. İndinin özündə də İran Suriya hökumətini, Səudiyyə Ərəbistanı isə Bəşər Əsəd rejiminə qarşı çıxanları dəstəkləyir. İki müsəlman dövləti arasında uzun müddətdir davam edən bu fikir ayrılığı, eləcə də hazırkı gərgin münasibət nədən qaynaqlanır?**

- Son onilliklər ərzində, xüsusən də İranda İslam inqilabı baş verdikdən sonra bu iki dövlət arasında açıq mübarizə gedir. Bu dövlətlərin heç biri bölgəyə liderlik etmək iddiasını gizlətmir. İki dövlətin hər birinin təbii sərvətləri, hərbi gücü var və buna əsaslanaraq da niyyətlərini gizlətmir, maraq dairələrini daim genişləndirməkdən əl çəkmirlər. Bu da təbii prosesdir. İran şiə təriqətli İslam ölkəsi kimi öz maraqlarını güdür. Səudiyyə Ərəbistanı da sünni təriqətli müsəlman ölkəsi kimi körfəz dövlətlərindən ibarət koalisiya formalaşdırıb və İrana qarşı mübarizəsini davam etdirir. "Ərəb baharı"ndan sonra yaranmış durum bu iki ölkənin mübarizə meydanını bir qədər də genişləndirib. Çünki hər iki dövlətin öz müttəfiqləri var. Misal üçün Suriya uzun illərdir ki, İranın rəsmi müttəfiqidir. Hələ İran-İraq müharibəsi zamanı Səudiyyə Ərəbistanı körfəz dövlətləri ilə birlikdə İraqa - Səddam Hüseyn rejiminə dəstək veirdi. Səkkiz illik bu müharibədə İrana dəstək verən ölkə Suriya oldu. İndiki situasiyada da əsas diqqət təriqət mübarizəsinə yönəlib. Amma bu dövlətlərin prioritetlərini də nəzərdən qaçırmaq olmaz. Yaxın Şərqdəki bəzi ölkələr İranın təsiri altındadırlar. Səudiyyə Ərəbistanı bunun qarşısını almaq üçün çoxsaylı tədbirlər həyata keçirir, maliyyə resurslarını işə salır və sair. Hazırda Yəməndə davam edən proseslərdə biz bunu aydın müşahidə etməkdəyik. Hesab edirəm ki, İranın geosiyasi səhmləri daha sabit indeksə malikdir, nəinki Səudiyyə Ərəbistanın. Çünki İranın olduğu bölgələrdə, o cümlədən Livan, Suriya və Yəməndə rəsmi Tehranın mövqeləri özünü doğruldur. Bu ölkələrdə İranı dəstəkləyən qüvvələr mübarizədə duruş gətirə bilirlər. Səudiyyə Ərəbistanı isə bu proseslərdə bir qədər ehtiyatsız tərpənir, əlindəki iri maliyyə vəsaiti müqabilində hər hansı nailiyyətlər əldə etməsi görünmür. Bütün bu proseslər fonunda bir müddət əvvəl Səudiyyə Ərəbistanının rəhbərliyi ilə yaradılan, 34 dövlətin də üzv olduğu koalisiyanın nəyə görə və kimə qarşı meydana çıxdığını daha aydın təsəvvür edə bilərik. Hazırda İranla Səudiyyə Ərəbistanı arasında yaranan gərginlikdən sonra Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn və Sudan da rəsmi Ər-Riyada dəstək nümayiş etdirdilər, Tehranla diplomatik əlaqələri kəsdilər. Ola bilsin ki, bu cərgədə düzülən dövlətlərin sayı artsın. Ancaq bu, o qədər də önəm kəsb edən məsələ deyil. Misal üçün, Səudiyyə Ərəbistanına dəstək verəcək Somali və ya Çad kimi kövrək dövlətlər İrana hansısa təsir etmək gücündə deyillər. Somali bir dövlət olaraq heç mövcud deyil və burada qəbilələr arasında kəskin mübarizə gedir. Belə olan halda həmin dövlətin İrana hansı təsirindən danışmaq olar? İnanmıram ki, belə bir şəraitdə Pakistan, İndoneziya, Malayziya və sair kimi nüfuzlu dövlətlər İrana qarşı mövqe nümayiş etdirsinlər. Birincisi, bu ölkələr oturuşmuş, güclü dövlətlərdir, onların öz siyasətləri, maraqları və planları var. Həmin dövlətlər İranla çox böyük sazişlərə, əməkdaşlıqlara hazırlaşırlar.

**- Səudiyyə Ərəbistanı və İran arasındakı gərginliyi ABŞ və Rusiya maraqlarının toqquşmasından irəli gələn hadisə kimi qiymətləndirmək olarmı?**

- Səudiyyə Ərəbistanının ABŞ-la münasibətləri indiki vəziyyətdə bir qədər soyuqdur. Çünki rəsmi Ər-Riyad nüvə danışıqlarının nəticəsi olaraq, Amerika və İran arasında sazişin imzalanacağını, müəyyən razılıq əldə ediləcəyini gözləmirdi. Bu anlaşmadan sonra Səudiyyə Ərəbistanı İsraillə münasibətləri yaxşılaşdırmağa başladı. Digər ərəb dövlətləri də İrana qarşı mübarizədə kiminlə olsa razılaşmaya, yaxınlaşmağa, müttəfiqliyə getməyə hazırdırlar, təki rəsmi Tehranın mövqeləri zəifləsin. Rusiya və İranın münasibətlərinə gəlincə, Suriyada hər iki dövlətin maraqları və mövqeyi üst-üstə düşür. Rəsmi Moskva Suriyada Bəşər Əsəd rejiminə hərbi dəstək verəndən, İraq Şam İslam Dövlətinə (İŞİD) qarşı əməliyyatlara başlayandan sonra regionda geosiyasi vəziyyət bir qədər dəyişib. İŞİD-lə mübarizə daha konkret hal almağa başlayıb. Bəlli oldu ki, ABŞ-ın rəhbərliyi ilə İŞİD-ə qarşı bir ildən artıqdır mübarizə aparan koalisiya əsl reallıqda elə də ciddi işlər görməyib. Onların tək niyyəti Bəşər Əsədi siyasi meydandan çıxarmaq olub. Ona görə də Rusiya və İran rəsmi Dəməşqi müdafiə etməklə bərabər, İŞİD terrorçularının da mövqelərinə ciddi zərbələr vurublar.

**- İki İslam dövləti arasında münasibətlərin kəskinləşməsi regiondakı vəziyyətə necə təsir edir?**

- Regionda vəziyyət onsuz da gərgindir və risklər durmadan artır. Səudiyyə Ərəbistanının İranla diplomatik münasibətləri kəsməsi bu gərginliyi, riski bir qədər də artırıb. Bu iki dövlət bir-birinin acığına müxtəlif addımlar atmaqla, təhrikedici mövqe də nümayiş etdirirlər. İndiki situasiyada daha bir böhranın ortaya çıxması qlobal müharibənin reallaşması təhlükəsini də meydana gətirir. Bu ölkələrin özündə və ətraflarında da vəziyyət natarazdır. Terrorizm deyilən anlam baş alıb gedir. Bilmək olmur ki, terrorizm və terrorizmlə mübarizənin sərhədləri harada başlayıb harada sona çatır, kim bunları idarə edir, maliyyələşdirir, hansı qüvvələr kimlərlə danışıqlara gedirlər, kimə qarşı birləşirlər və sair. Bir sıra hallarda bəzi terrorçu qruplaşmalarda müəyyən ölkələrin əli olduğu da üzə çıxır. Həmin ölkələr bu yolla öz maraqlarının təmin olunmasına ümid bəsləyirlər. Misal üçün, İran "Hizbullah"ı dəstəkləyir, Səudiyyə Ərəbistanı isə bu təşkilatı terrorçu qurumlar siyahısına daxil edib. Livan şiələrindən ibarət bu təşkilat öz torpaqlarında mövcudluğunu sürür və əsasən İsraillə mübarizə aparır. Əslində, "Hizbullah" müqavimət hərəkatıdır. Yaxud, şiə təriqətli husilər Yəməndə öz ölkələrində yaşayırlar və sünni azlığın onları sıxışdırmasına etiraz olaraq müqavimət göstərirlər. İran da onları dəstəkləyir. Bəhreyndə də eyni vəziyyətdir. Yəni, bütün proseslərdə ölkələrin hər birinin öz korporativ maraqları var. İran dünya miqyasında bütün şiələrə dəstək verdiyini gizlətmir. Səudiyyə Ərəbistanı isə bunun əleyhinə siyasət yürütməkdədir. Biz indi baxıb görürük ki, rəsmi Ər-Riyadın rəhbərlik etdiyi yeni anti-İŞİD, beynəlxalq terrorizmə qarşı koalisiya elə anti-şiə koalisiyası anlamına gəlir. Artıq maskalar çıxarılıb və açıq mübarizə gedir.

**- Münasibətlərin daha da kəskinləşməsi nəticəsində Səudiyyə Ərəbistanı və İran arasında müharibə baş verə bilərmi?**

- Fikrimcə, hazırda əsas məqsəd bu iki dövlət arasında toqquşmanın olmamasına çalışmaqdır. Çünki hər iki tərəf güclüdür, güclü hərbi potensiala, silahsursata sahibdir. Müharibə olduğu zaman Fars körfəzi ətrafındakı ölkələr bu prosesdən kənarda qala bilməyəcəklər. Çoxsaylı insan itkisi ilə yanaşı, oradakı mövcud infrastruktur da alt-üst olacaq, dağılacaq. Dünya iqtisadiyyatında kollaps yaranmasın deyə, buna yol verməmək olmaz. Bundan başqa, inanmıram ki, bu müharibə ehtimalı böyük olsun. Bir-birinə qarşı əzələ nümayişi, nələrəsə təhrik etmə cəhdləri, hədələmək olacaq. Ancaq bu iki dövlətin birbaşa toqquşmasına, müharibə aparmasına yol verilməyəcək. Birincisi müharibəni tərəflər özləri də istəməzlər. Çünki itirilməli olacaq çox şeylər var. İkincisi, fövqəldövlətlər, dünya iqtisadiyyatını idarə edən güclər, transmilli şirkətlər və sairlər imkan verməzlər ki, tərəflər "qırmızı xətti" keçsinlər.

**- İki ölkə arasında gərginlikdən sonra dünya birjalarında dollar və qızılın qiyməti bahalaşıb, neftin qiymətində də dəyişiklik nəzərə çarpıb. Bu bahalaşma davamlı xarakter ala bilərmi?**

- Səudiyyə Ərəbistanı və İran arasında münasibətlərin gərginləşməsinin birinci günü neftin qiymətində bahalaşma dərhal müşahidə olundu. Eləcə də qeyd etdiyiniz kimi dollar və qızılın qiyməti qalxdı. Əvvəla buna səbəb bu regionun olduqca həssaslığıdır. Digər tərəfdən, hər iki dövlət OPEC-in üzvü olduqları üçün neft bazarında da bir-birləri ilə rəqabətdədirlər. Bir-birlərinə qarşı bu mənada da müxtəlif vasitələrdən istifadə edirlər. Ona görə də dünya miqyasında bu məsələ daim diqqət mərkəzində saxlanılır. Bəlli dairələr dərhal Səudiyyə Ərəbistanının və İranın reaksiyalarını gözləyir, buna uyğun addımlar atırlar.

**- Türkiyənin Səudiyyə Ərəbistanı və İranla ayrı-ayrılıqda yaxşı münasibətləri var. Ər-Riyad və Tehran arasında gərginliyin yaşanması Ankara üçün hansı çətinliklər, problemlər yaradır?**

- Hesab edirəm ki, Türkiyə bölgə siyasətində çox böyük əyintilərə yol verib. Əvvəlcə Türkiyə İraq və Suriyada öz hegemonluğunu təmin etmək istədi, lakin alınmadı. İndi isə Türkiyə Səudiyyə Ərəbistanının tərəfində çıxış edir. Bir müddət əvvəl Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğan Səudiyyə Ərəbistanına səfər etmişdi. Orada bağlı qapılar arxasında dinləmələr keçirilib, danışıqlar aparılıb. Hər iki ölkə strateji əməkdaşlıq şurasının yaranması barədə qərar qəbul ediblər. Bu ondan xəbər verir ki, hazırkı situasiyada Ankara Ər-Riyadın yanındadır. İŞİD-ə, beynəlxalq terrorizmə qarşı yaradılan yeni koalisiyanın tərkibində də Türkiyə var. Ərdoğanın son bəyanatları da İranda birmənalı qarşılanmır. Fikrimcə, Türkiyənin bu proseslərdə iştirakı onun gözləntilərinə cavab verməyəcək. Düzdür, Türkiyənin də öz dövlət maraqları, bölgədə nüfuzu var və Ankara regionun lider dövləti olmaq istəyir. Lakin Türkiyə sahib olduğu siyasi kapitalı xərcləməyə tələsməməli idi. İndiki halda Ankara Ər-Riyadın tərəfində dayanırsa, bu o deməkdir ki, İran da bunu özünəməxsus şəkildə qarşılayacaq, əks tədbirlər görəcək.

**Rufik İSMAYILOV**